# Azərbaycan

2003-cü il üzrə «Korrupsiya haqqında təsəvvürün indeksi»: 1,8 (133 ölkə arasında 124-cü yer)
2002 ci il üzrə «Rüşvət verənlərin indeksi»: tədqiqat aparılmayıb

Konvensiyalar:
Avropa Şurasının «Korrupsiyaya görə mülki məsuliyyət haqqında» konvensiyası (2003-cü ilin mayında imzalanıb, hələ ratifikasiya edilməyib)
Avropa Şurasının «Korrupsiyaya görə cinayət məsuliyyəti haqqında» konvensiyası (2003-cü ilin mayında imzalanıb, hələ ratifikasiya edilməyib)
«Transmilli mütəşəkkil cinayətkarlığa qarşı» BMT konvensiyası (2000-ci ildə imzalanıb, hələ ratifikasiya edilməyib)

Hüquqi və institusional dəyişikliklər

2002-ci ilin avqustunda keçirilən referendumun konstitusiyaya etdiyi dəyişikliklərin bəziləri siyasi korrupsiyanın artmasına səbəb ola bilər. Onlardan biri adi məhkəmələrə siyasi partiyaların bağlanılması haqqında qərar çıxarmaq səlahiyyətini verir, halbuki əvvəllər partiyaları yalnız ən yüksək səviyyəli məhkəmə bağlatdıra bilərdi. Digəri isə, seçki nəticələrinin təsdiq edilmə müddətini 7 gündən 14 günə qədər uzadır ki, bu da seçkili vəzifədə olanlara məntəqə seçki komissiyalarının protokollarını saxtalaşdırmaq üçün daha yaxşı imkan yaradır. Azərbaycan müxalifətinin bir hissəsi iddia edirdi ki, həmin dəyişikliklər 2003-cü ilin mayında 80 yaşa çatmış prezident Heydər Əliyev üçün öz varisini təyin etmək işini asanlaşdırmaq məqsədini güdürdü. Görünür, doğrudan da bu belə idi, çünki avqust ayında parlament onun oğlu İlhamın baş nazir olmasına səs verdi.[1]

2002-ci ilin avqustunda vergilər nazirliyi özünün rayon şöbələrindəki yoxlama bölmələrini bağladı və yoxlamalar aparmaq səlahiyyətini nazirliyin özündə yerləşən mərkəzləşmiş orqana verdi. Dəyişikliyin müsbət cəhətlərindən biri ondan ibarətdir ki, kiçik və orta müəssisələrdə (KOM) aparılan əsassız yoxlamaların sayı əhəmiyyətli dərəcədə azaldı.

2002-ci ilin sentyabrında prezident Əliyev biznesin inkişafına dövlət dəstəyi haqqında fərman imzaladı. Korrupsiya əleyhinə bir sıra tədbirlər fərmanda özünə yer tapmışdır.

2002-ci ilin dekabrında dövlət satınalmaları haqqında qanunun qüvvəyə minməsindən sonra, investisiya fəaliyyəti haqqında, elektroenergetika haqqında və arxitektura haqqında qanunlara prezidentin təklifi ilə parlament bəzi dəyişiklikləri qəbul etdi. Qanunların üçündə də «tender» sözü «müsabiqə» sözü ilə əvəz olundu. Dəyişikliyin tənqidçiləri «tender»in dəqiq rəsmi məna daşıyan hüquqi termin olduğunu, «müsabiqə»nin isə müxtəlif yozumlara açıq və, beləliklə, satınalmada korrupsiyaya yol açan ifadə olduğunu iddia edirdilər.

2003-cü ilin yanvarında prezident öz fərmanı ilə dövlət qulluğu haqqında qanuna dəyişiklikləri təsdiq etdi. Dəyişikliyə əsasən, müsahibələr işə götürmə üsullarından birinə çevrildi. Qanunun əvvəlki versiyası yalnız rəsmi müsabiqələrin keçirilməsini nəzərdə tuturdu. Bəzi müxalif tənqidçilər yeni qaydanın dövlət sektorunda işə götürülmə prosesində korrupsiyaya təkan verən bir qayda olması haqqında xəbərdarlıq etdilər.

2002-ci ilin sentyabrında biznesə müdaxiləyə yol verilməməsi haqqında prezident fərmanı daxili işlər nazirliyinin iqtisadi cinayətkarlığa qarşı mübarizə idarəsini ləğv etdi. Fərman daxili işlər nazirliyinə həm də tapşırdı ki, yol polisində çalışanların sayı 15 faiz azaldılsın. Bu ixtisar korrupsiyanın azalmasına xidmət eləyə bilər, çünki prezident, həddindən artıq sayda yol polis postlarının mövcudluğunu korrupsiyanın açıq-aydın nümunəsi olması qənaətinə gəlmişdir. Fərmanla, vergilər nazirliyi öz inspektorlarının sayını 40 faiz azaltmaq tapşırığını aldı. Fərman həm də bütün şəhər və rayon hakimiyyət orqanlarında biznesin və müəssisələrin yoxlanılması ilə məşğul idarələri bağlatdırdı. Yoxlama aparan orqanların sayının azalması, KOM arasında korrupsiya göstəricisinin az da olsa yaxşılaşması ilə nəticələndi və yaxınlarda aparılan tədqiqatlar bunu sübut edir.[2]

Rəsmi dövlət qeydiyyatı

Məcburi rəsmi dövlət qeydiyyatına nəzarət edən dövlət qulluqçularının rüşvət tələb etməsi Azərbaycanda heç də qeyri-adi hal deyil. Dövlət qeydiyyatından mütləq keçməli olan müəssisə və vətəndaş cəmiyyəti təşkilatlarının artmaqda olan sayı müvafiq qanunvericiliyin və standartların yaxşılaşdırılması zərurətini təcililəşdirir.

ABŞ-Azərbaycan ticarət palatasının nümayəndəsi Jonelle Glosch televiziya müsahibəsində rəsmi qeydiyyatın və vergilərin ölkəyə sərmayə qoyulmasında ən çətin maneə kimi qeyd etməsi problemə xüsusi diqqət cəlb edib. O, demişdi: «2002-ci ilin aprelində dörd şirkət lisenziya almalı idi. Bunu etmək çox çətin idi. Biz Britaniya və ABŞ səfirliyinin nümayəndələri ilə prezident aparatına getdik və [prezidentlə] görüşdük. Onun tapşırığından sonra şirkətlər qeydiyyatdan keçdi».[3]

Bundan başqa, dini assosiasiyaların yenidən qeydiyyatdan keçməsi prosesi həm onların, həm də insan hüquqları müşahidəçilərinin tənqidinə məruz qalıb. Ədliyyə nazirliyində qeydiyyatdan keçmiş bütün dini assosiasiyalar qarşısında 2002-ci ildə müvafiq dövlət komitəsində yenidən qeydiyyatdan keçmək tələbi qoyuldu. Hakimiyyət orqanları bəyan edirdilər ki, yenidən qeydiyyatdan keçmək zərurətindən dini assosiasiyaların agah olmaları və sənədləşdirmə prosesində şəffaflığın təmin edilməsi üçün bütün zəruri işlər görülür. Buna baxmayaraq, hesabatlar göstərir ki, bəzi dini assosiasiyalar yeni qeydiyyat tələbindən və bunun üçün hansı sənədlərin tələb olunması haqqında lazımi qədər məlumatlandırılmayıb.[4]

Əvvəllər özləri ədliyyə nazirliyində qeydiyyatdan keçməli olan QHT-lər indi bütün qrantlarını da bu orqanda qeydiyyatdan keçirməlidirlər. Qanunsuz tələblərin nəticə etibarı ilə artacağını dəlil kimi gətirərək, bu haqda müvafiq qərara QHT-lərin əksəriyyəti etiraz etdi. Onlara əsasən, qərar sadəcə olaraq beynəlxalq donorları Azərbaycanda vətəndaş cəmiyətinə aid və digər layihələrin maliyyələşdirilməsindən çəkindirəcək.[5]

Siyasi partiyalar da özbaşınalıq və qeyri-bərabərliklə səciyyələndirilən qeydiyyat ssenarilərilə üzləşirlər. Prezident, parlament və bələdiyə seçkilərini idarə edən qanunlar, eləcə də bu qanunların tətbiqi prosesi namizədlərin və onların siyasi partiyalarının qeydə alınmaması üçün çoxsaylı özbaşınalıq və qanunsuzluq imkanları yaradır. Ən azından, 2000-ci il parlament seçkilərində «proporsional» dairə üzrə bəzi aparıcı müxalifət partiyaları qeydə alınmadılar. Düzdür, sonda güclü beynəlxalq təzyiq nəticəsində onlar səsvermə bülleteninə daxil edildilər, lakin «majoritar» dairələrdə qeydə alınmayan başqa namizədlərə həmin təzyiq də kömək edə bilmədi. Problem 2002 və 2003-cü illərdə keçirilən əlavə seçkilərdə də mövcudluğunu davam etdirib. Bəzi əsas siyasi partiyalar, məsələn keçmiş prezident Ayaz Mütəllibovun Vətəndaş Birliyi Partiyası, hələ də rəsmi dövlət qeydiyyatı olmadan fəaliyyət göstərirlər.[6]

Hüquqi şəxslərin mərkəzləşdirilmiş və sadələşdirilmiş rəsmi qeydiyyatı sistemi problemin ən səmərəli həlli yolu olardı. Bu istiqamətdə bəzi ilkin addımlar atılmışdır.

Onlar arasında KOM-lar üçün dövlət proqramının işə düşməsini qeyd etmək olar, çünki proqramın məqsədləri arasında KOM-ların qeydə alınması və lisenziyalaşdırılması prosedurunun sadələşdirilməsi və onların hüquqlarının müdafiəsi də vardır.[7]

Yerlərdə pozuntular, mərkəz qarşısında məsuliyyət: tabeçiliyin hazırki vəziyyəti

Yalnız prezidentə tabe olan yerli icra hakimiyyətləri ölkə üzrə ən nüfuzlu idarəetmə orqanı olaraq qalır. Onların fəaliyyəti üzərində rəsmi xalq nəzarətinin olmaması onları ən böyük korrupsiya mənbələrindən birinə sahib edib.

2003-cü ilin aprelində prezident Əliyev Bakıdan sonra üç ən böyük şəhərin – Sumqayıt, Gəncə və Lənkəranın - icra hakimiyyəti başçılarını dəyişdi. Bu, televiiya ilə yayımlanan çıxışdan sonra baş verdi. Həmin çıxışında prezident yüksək vəzifəli şəhər məmurlarını və yerli işguzar dairələri korrupsiyada ittiham etdi.[8] Prezident həm də Sumqayıt şəhərinin sosial proqramlarında «çox da fəal olmayan» yerli iş adamından maliyyə işlərində iştirak etməsini tələb etdi. Prezidentin sözlərindən belə çıxırdı ki, yerli icra hakimiyyətlərinin başçıları yerli iş adamlarını dövlət xidmətlərinin və yenidənqurma işlərinin maliyyələşdirilməsinə məcbur etməyə səlahiyyətlidirlər.

2003-cü ilin mayında bələdiyyələr üzərində inzibati nəzarət haqqında qanun parlament tərəfindən qəbul edildi. Qanun «müvafiq icra hakimiyyəti orqanına» bələdiyyələrdə yoxlamalar və ümumi qiymətləndirmə aparmaq səlahiyyətini verdi. Bu addım bələdiyyələrin yerli icra hakimiyyətləri ilə müqayisədə müstəqilliyini daha da azaltdı.

Yerli icra hakimiyyətlərinin bütün ölkə üzrə hakimiyyətini gücləndirən belə geriləmələrə baxmayaraq, siyasi liderlərin qanunvericilər qarşısında hesabatlılığı sahəsində çox əlamətdar irəliləmə də baş verib. 2002-ci ilin iyununda nazirlər kabinetinə etimad məsələsində parlamentin əlavə hüquqları haqqında konstitusiya qanunu parlament tərəfindən qəbul olundu. Qanun, parlament qarşısında illik hesabatlarla çıxış etmək məsuliyyətini kabinetin üzərinə qoydu və tələb etdi ki, kabinet rəsmiləri (hökumətin razılığı şərtilə) parlament iclaslarında şifahi və yazılı sualları cavablandırsınlar. İlk dəfə bu 2003-cü il martın 18-də baş tutdu: baş nazirin birinci müavini Yaqub Eyyubov təqdimat keçirdi və suallara cavab verdi. Bu hadisə düzgün istiqamətdə atılan bir addım idi, çünki indiyə qədər Azərbaycanda heç vaxt hökumətin seçilmiş qanunvericilər qarşısında hesabat verməsi ənənəsi olmayıb.

Eynilə, yeni yaradılmış müstəqil Dövlət Neft Fondunun (ARDNF) hesabatlılığını yaxşılaşdırmaq istiqamətində müsbət addımlar atılıb. Qeyd edək ki, ARDNF, birbaşa dövlət büdcəsinə yollanan vergiləri çıxmaqla, neftdən əldə edilən bütün gəlirləri özünə daxil edir. ARDNF Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) neft gəlirlərinin şəffaflığını təmin etməlidir.[9] 2003-cü il mayın 13-də parlament, büdcə sistemləri haqqında qanuna əlavə və dəyişikliklər etməklə ARDNF-ni ölkənin ümumi büdcəsinə daxil etdi. Bu isə neft fondunun qanunvericilik hakimiyyətinə tabe edilməsi istiqamətində ilk əhəmiyyətli addım idi.

Bununla belə, yerli tənqidçilər və Beynəlxalq Valyuta Fondu şəffaflığı təmin etmək və vəsaitin təyinatsız istifadəsinin qarşısını almaq məqsədilə ARDNF-nin tam şəkildə qanunvericilik hakimiyyətinə tabe olunmasını tələb edirlər. ARDNF prezident fərmanı ilə yaradılmışdır və onun xərcləri üzərində nəzarəti əsasən prezident aparatı həyata keçirir. Nəzarətin az olması onun siyasi manipulyasiyalara məruz qalması təhlükəsini artırır.

2003-cü ilin iyununda Eurasianet tərəfindən təşkil olunan yığıncaq-müzakirə bu qənaətə gəldi ki, Azərbaycanda, eləcə də Qazaxstanda, neft ixracı artdıqca yoxsulluq səviyyəsi arta bilər. Müzakirənin əsas diqqəti «resursların lənəti»nə yönəlmişdi. Bu termin çox gəlirli neftçıxarma hüquqlarını satan kasıb ölkələrin daha da kasıblaşması

prosesini təsvir edir. Ekspertlər vurğuladılar ki, neft sənayesində korrupsiyanın miqyasını azaltmaq üçün ən yaxşı korporativ idarəetmə təcrübəsi stimullaşdırılmalıdır. Xüsusən də, onlar xarici şirkətləri çağırdılar ki, hər bir dövlət nazirliyinə qazma işləri üçün ödədikləri vəsaiti açıqlasınlar. Bu çağırış «Ödədiyini açıqla»[10] təşəbbüsü əsasında irəli sürülmüşdü.

Korrupsiya orduda hələ möhkəmdir

Ordudakı korrupsiya və məsuliyyətliliyin yoxluğu ictimaiyyəti artıq dərəcədə narahat edən məsələlər sırasında qalır. Yerli və beynəlxalq insan hüquqları fəallarının hesabatları nümayiş etdirir ki, çağırışçılar orduda iqtisadi istismara məruz qalır, müdafiə nazirliyinin rəsmiləri əsasən pul şəklində olan qeyri-qanuni ödənişlər əvəzində çağırışçıları hərbi xidmətdən azad edir, onlara möhlət verir və ya daha az riskli ərazidə xidmət keçmələrinə sərəncam verirlər. Bəzi hərbi hissələrdə zabitlər maddi vəsaitləri oğurlayır və ya hərbi xidmətə çağırılmış əskərləri müntəzəm şəkildə pulsuz işçi qüvvə kimi istifadə edirlər. Tikinti işlərində çalışan 8 əskər 2002-ci ilin iyulunda günəş zərbəsindən həyatını itiriblər.[11]

Təəcüblü deyil ki, hərbi xidmətdən azad olmaq və ya daha yüngül xidmət keçmək üçün rüşvət verməyə imkanı olmayan çağırışçılar əsasən kasıb adamlardır. Az yeməkdən və vərəmdən tez-tez əziyyət çəkdiklərinə görə həmin şəxslər çox vaxt bədbəxt hadisələrlə üzləşir və qarşılarında qoyulan vəzifənin öhdəsindən gələ bilmirlər.[12]

Bəzi hallarda, ordudakı korrupsiya böyük siyasi qalmaqallara yol açır. 2003-cü ilin fevralında, yalan və səlahiyyətlərin aşması səbəbilə məhkum olunmuş hərbi jurnalist Üzeyir Cəfərov mətbuat konfransı keçirərək bəyan etdi ki, onun məhkum olunması müdafiə nazirinin yenicə vəzifəsindən kənarlaşdırılmış müavini Məmməd Bəydullayev tərəfindən «ilhamlandırılıb». Cəfərov əvvəllər müdafiə nazirliyinin balansında olmuş mülkiyyətin siyahısını göstərərək özəlləşdirmənin qanunsuz aparıldığına işarə etdi. Bununla əlaqədar heç bir tədbir görülmədi.[13]

2002-ci il sentyabrın əvvəlində Bakı hərbi kollecindəki etiraz aksiyası yüzlərlə kursantın məktəbdəki korrupsiyaya etiraz olaraq yürüş keçirməsi ilə nəticələndi. Hadisədən bir neçə gün sonra Gəncədə çıxış edən prezident Əliyev «qanun pozuntuları, komandirlər tərəfindən rüşvət alınması və nalayiq məqsədlərlə səlahiyyətlərdən sui-istifadə» hallarının olduğunu etiraf etdi.[14] Lakin o, qeyd elədi ki, kursantların buna reaksiyasına haqq qazandırmır. 2003-cü ilin yazına qədər kollecin bütün komanda heyəti dəyişdirildi, lakin kursantların etirazında aparıcı rol oynamış kursantlar sıravi əskərlər qismində Ermənistanla və ya Qarabağla sərhəddə xidmətə göndərildi.

Narahatçılıq doğuran daha bir sahə, hərbi komissarlıqlara aiddir. Onlar öz fəaliyyətində həddindən artıq sərbəstliyə malikdirlər və bəzən öz səlahiyyətlərini müxalif tərəfə təzyiq aləti kimi istifadə edirlər. Məsələn, «Bizim yol» qəzetində hökuməti tənqid edən məqalələr silsiləsi dərc olunandan dərhal sonra onun baş redaktoru Məhəmməd Ersoy hərbi xidmətə çağırıldı, qəzet tirajının bir hissəsi isə satış məntəqələrindən yığışdırıldı.[15]

Təqdirəlayiq olmayan belə hadisələr fonunda, 2002-ci ilin avqustunda prezident Əliyevin milli orduya yardım göstərmək istəyən vətəndaş və şirkətlərdən ianələr qəbul etmək üçün xüsusi fondun yaradılmasına sərəncam verməsi tənqidə məruz qaldı. Guman ki, həmin tənqidçiləri susdurmaq məqsədilə prezident, bu fondda ildə bir dəfə yoxlama aparılmasına əmr verdi.

Rəna Səfərəliyeva («Beynəlxalq Şəffaflıq» Azərbaycan) və İlqar Məmmədov («Demokr-İT», Azərbaycan)

Əlavə ədəbiyyat

«Korrupsiya», Sabit Bağırovun redaksiyası altında, Bakı, «Şəffaflıq Azərbaycan», 2002-ci il

«Şəffaflıq Azərbaycan» təşkilatının internet saytı: www.transparency-az.org

Qeydlər

[1] Seçki müşahidəçiləri diqqəti pozuntulara cəlb etsə də, İlham Əliyev 2003-cü il oktyabrın ortasında prezident seçildi.

[2]www.echo-az.com/archive/432/facts.shtml#11

[3] ANS televiziyasına müsahibə, 16 fevral 2003-cü il

[4] ECRI təşkilatının Azərbaycan üzrə hesabatı, Avropa Şurası, 15 aprel 2003-cü il, www.reliefweb.int/w/rwb.nsf/6686f45896f15dbc852567ae00530132/a2b221ae7a267396c1256d09002fcf5f?OpenDocument

[5] 2003-cü ilin yanvarında verilən prezident fərmanı 1998-ci il qrant qanununa 2002-ci ilin aprelində qəbul olunmuş həmin dəyişiklikləri qüvvəyə mindirdi.

[6] www.vbp-az.org/english/presssl.html

[7] Proqram 2003-cü il avqustun ortalarında prezident fərmanı ilə işə düşüb.

[8] «Novoe vremə» qəzeti (Azərbaycan), 4 aprel 2003-cü il.

[9] 2002-ci ilin noyabrında Azərbaycanın yüksək səviyyəli ittihamların hədəfinə çevrilməsi məsələləri bir qədər qəlizləşdi: çexiyalı iş adamı Viktor Kojeni Azərbaycan hökumətini ARDNŞ-nin özəlləşdirilməsi məsələsində onu aldatmaqda suçladı; bax: www.eurasianet.org/departments/business/articles/eav111802.shtml

[10] Eurasianet təşkilatı, «Resursların lənəti» Azərbaycan və Qazaxstanın üstünə düşəcəkmi?», 27 iyun 2003-cü il. Bundan başqa bax: Svetlana Tsalik, *Caspian Oil Windfalls: Who Will Benefit?*, OSI Caspian Revenue Watch, Central Eurasia Project, 2003, http://www.soros.org/initiatives/cep/articles_publications/publications/caspianoilwindfalls_20030514

[11] Human Rights Watch, World Report 2003, www.hrw.org/wr2k3/europe3.html

[12] France-Presse agentliyi (Fransa), 31 iyul 2002-ci il.

[13] Ələkbər Məmmədovla müsahibə, «Gxo» qəzeti (Azərbaycan), 25 yanvar 2003-cü il.

[14] «Turan» informasiya agentliyi, 12 sentyabr 2002-ci il.

[15] «Turan» informasiya agentliyi, mətbuat icmalı, 29 aprel 2003-cü il.